

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 12-13 (7249-7250) Çərşənbə, 11 fevral 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik


# Regionların 2014—2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda geniş nitq söyləmişdir*




Yanvar ayının 27-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının 2014—2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.

Heydər Əliyev Mərkəzində 2004—2014-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş sərgi təşkil olunmuşdur. Sərgidə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəriciləri, iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, sahibkarlığın inkişafının dəstəklənməsi, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya-kommunikasiya texnologiyaları, sosial inkişaf, turizm və ekologiya sahələrində əldə edilən uğurlardan bəhs olunurdu.

Sərgidə həmçinin Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumatlara geniş yer verilmişdir. Nümayiş olunan foto, cədvəl və diaqramlardan görünürdü ki, ilk proqramın qəbul edildiyi vaxtdan keçən dövr ərzində nəzərdə tutulan tədbirlər uğurla icra olunmuş, ölkə iqtisadiyyatının dinamik inkişafı, o cümlədən regionlarda irimiqyaslı layihələrin həyata keçirilməsi təmin olunmuşdur.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləmişdir. Cənab Prezident nitqinin giriş hissəsində qeyd etmişdir ki, bu gün burada üçüncü Dövlət Proqramının icrasından keçən bir il ərzində görülən işlər haqqında məlumat veriləcək, eyni zamanda 2015-ci ildə görüləcək işlər haqqında danışılacaqdır.

Cənab Prezident qeyd etmişdir ki, ötən bir il ərzində dünyada müxtəlif hadisələr baş vermiş, müxtəlif proseslər getmişdir. Beynəlxalq aləmdə gərginlik daha da artmış, Yaxın Şərqdə, Avropada qanlı toqquşmalar baş verir, müharibələr davam edir, maliyyə və iqtisadi böhranların yeni mərhələsi başlanmışdır. Azərbaycanda isə keçən il ərzində bütün işlər müsbət istiqamətdə davam etmişdir. Ölkəmizdə ictimai-siyasi vəziyyət sabitdir. İqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük addımlar atılır. Azərbaycan bu gün nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir.

Siyasi vəziyyətə real qiymət verən Prezident sözünə davam edərək dedi: «Yaxın şərqdə siyasi və hərbi böhran yaşanır, Avropada vəziyyət gərginləşir, Ukraynada vəziyyət daha da kəskinləşir, neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür... Amma buna baxmayaraq, Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır. Regionlar sürətlə inkişaf edir. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir».

Ölkə başçısı çıxışında birinci və ikinci Dövlət Proqramlarının uğurla yerinə yetirilməsinə yekun vurmuş, faktlara əsaslanaraq qeyd etmişdir ki, 2004-cü ildən bu günə qədər ümumi daxili məhsul 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye məhsulları istehsalında da artım 2,7 dəfəyə çatmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. Əgər 2004-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Bütün bunlarala yanaşı manatın məzənnəsi sabit olaraq qalır, böyük valyuta ehtiyatlarımız, düşünülmüş makroiqtisadi siyasət nəticəsində Azərbaycan vətəndaşları bu böhranı hiss etmirlər.

Bu illər ərzində 1 milyon 360 min yeni iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir. Cənab Prezident qeyd etmişdir ki, bu proses davam etməlidir. Ölkə başçısı daha sonra çıxışında ötən illərdə Azərbaycanda iqtisadi inkişaf və sosial sahədə həyata keçirilən tədbirlər üzərində dayanmış, reallığa əsaslanan faktlar və misallar söyləmişdir. Əlbəttə, ölkənin bu günki iqtisadi gücü imkan verir ki, siyasi səhnədə heç kimdən çəkinmədən öz sözümüzü deyə bilək, milli maraqlarımızı qoruyaq. Əsil mənada bu proseslər bütün dünyanın gözü qarşısında davam edir. Azərbaycan nəticə etibarı ilə o həddə gəlib çatmışdır ki, artıq nə iqtisadi, nə də siyasi cəhətdən heç kimdən asılı deyildir. Cənab Prezidentin ifadəsi ilə desək, Azərbaycanla heç kim diktat dili ilə danışa bilməz. Bəziləri bunu istəsə də bu alınmaz və alınmayacaq da. Həyata keçirilən iqtisadi amillər məhz Azərbaycana bu imkanları yaratmışdır. Çünki ölkə düzgün siyasət və bacarıqla idarə olunur. Nəticə isə göz qabağındadır: Azərbaycan ildən-ilə çiçəklənir, inkişaf edir. Bir sıra başqa dövlətlər isə bu imkandan kənarda qalırlar. Ermənistan isə bu imkanlardan tamamilə təcrid olunmaqdadır.

Sosial sahədə qazanılan uğurlardan danışan Prezident qeyd etmişdir ki, sosial islahatların təməlində güclü iqtisadiyyat dayanır. Faktlara keçsək misal göstərmək olar ki, əgər 2004-cü ildə ölkədə orta aylıq əməkhaqqı 100 dollar idisə, hazırda bu göstərici 565 dollara çatmışdır. Orta aylıq pensiya isə o vaxtlar cəmi 24 dollar idi. Hazırda isə 221 dollardır. Son 11 ildə Azərbaycanda 2900 məktəb binası, 560 tibb ocağı tikilmiş və ya təmir olunmuşdur. Təkcə regionlarda 41 olimpiya idman mərkəzi və 30 gənclər mərkəzi yaradılmışdır. Son 11 il ərzində 84 qəsəbə yaradılmışdır. 210 min köçkün yeni, gözəl evlərə, mənzillərə köçürülmüşdür. Bu məqsədlər üçün 2 milyard manat vəsait ayrılmışdır. Cənab Prezidentimizin və dövlətimizin sosial sahəyə diqqəti bunlara bir daha sübut olunur.

Cənab Prezident çıxışında bir sıra digər məsələlər üzərində də dayanmış və infrastruktur layihələrin icrası vəziyyətindən danışmışdır. Son 11 il ərzində 23 elektrik stansiyası tikilmişdir ki, onların gücü 2400 meqavatdır. Müqayisə üçün deyə bildərik ki, ölkənin ümumi enerji potensialı 6300 meqavatdır. Əgər bu elektrik stansiyaları yaradılmasaydı hazırda ölkənin üçdə biri işıqsız qala bilərdi.

Yuxarıda qeyd olunan müddətdə 10 min kilometr yol çəkilib, 340 körpü və tunel tikilib, yeni strateji əhəmiyyətli layihələrin icrasına başlanılmışdır.

* * *

Sonra konfransda iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, «Meliorasiya və su Təsərrüfatı» Açıq Səhimdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, «Azərsu» Açıq Səhimdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış edərək son bir ildə görülən işləərdən danışmışlar.

Konfransın sonunda cənab Prezident İlham Əliyev 2015-ci ildə qarşıda duran ən mühüm vəzifələr barədə yekun nitqi söyləmiş və əmin olduğunu bildirmişdir ki, əvvəlki illərdə olduğu kimi yenicə başlanan bu ildə də həmin vəzifələr uğurla yerinə yetiriləcəkdir.

**Nadir ATAKİŞİYEV.**